Şəhid general Polad Həşimova ithaf

Bu məqaləni doğma Azərbaycanımızın Tovuz bölgəsindəki sərhədlərimizin mənfur hayklar (ermənilər) tərəfindən pozulduğu zaman rəşadət göstərərək əsgərlərlə bir yerdə döyüşdüyü səngərdə şəhid olan generalımız Polad Həşimova həm də vətənimizin bütün şəhid qəhrəman övladlarına həsr edirəm. (şəkil 1)

Bizi xəlq edən ulu Allah nazil etdiyi müqəddəs Quranın kəlamlarında şəhidliyin üstün məqamlarını bəndələrinə bildirmiş və bu yolu bəyənmişdir.Bu yol haqq yoludur, vətən sevdasıdır, yaxşı, həm də ədalətli olanlara sədaqətdir.Hələ uzaq keçmişdən bəri bu yolda xalqımızın qazilik və şəhidlik məqamlarına çatan saysız qəhrəman, igid övladları olmuşdur. Onlar qazi və şəhid olduqları qədər diridirlər.

Əcdadlarımız vətən sevgisindən vətəni kult səviyyəsinə qədər yüksəltmişlər.Onlar vətənə ödənəcək borcu ibadət saymışlar və bu əməl axirətdə sorulacaqlar arasında xüsusi məsələ olacaqdır demişlər. Bu ibadətlərin zirvəsini şəhadətlə fəth edənləri isə xoşbəxt sayıb, örnək tutmuşlar.

Şəhadət yolunu seçənlər vətəni, yurdu, mədfəni qorumaq üçün, ana torpağı qanları ilə suvarıb göyərtmək məqamına yüksəldən pak, comərd övladlardır. O, övladları yetişdirən xalq ölməz, yıxılar, durar, vuruşar və sonda qalib olar, örnək olar.Hansı ki, bu örnəklərin müqəddəs nümunələrini daş kitabələrimizdə, qədim oğuznamələrimizdə, şifrəli naxışlı xalçalarımızda, ən nəhayət ata-analarımızın öyüd və nəsihətlərində də görməkdəyik. Bütün bu amillər vətən kultunu formalaşdıran sərvətdir. Sərvətin qorunması isə hər kəsə vacibdir. Hər kəs vətəni, dövləti qorumaq üçün Allahın bəxş etdiyi bacarıq və istedaddan gərəyincə istifadə etməlidir. Çünki nemətləri verən elə bu nemətlərlə də, insanı imtahan edir. Belə imtahanlar isə həm bu dünyanın, həm də axirətin mənasını açır.

Şəhid generalımız Polad Həşimov və onun kimi, mərd qəhrəmanlar da, vətəni qorumağı peşə seçib bu yolda imtahandan məğrur, cəsur çıxan alplarımızdır. Belə alpların xatirəsini əzizləyən millətimiz, hələ qədimdən bəri bu məsləki ənənələrimizdə də diri tutub yaşatmışlar. Və bu ənənələrin izləri xalçalarımızın naxış yaddaşından qaynaqlanaraq, könlümə saldığı işıqla şəhid generalımızın uca ruhuna, həmçinin vətən uğrunda şəhid olan mərd övladlarımızın xatirəsinə həsr edəcəyim məqalənin yazılması üçün önümdəki yolları açdı.

Çünki alplıq (general, igid, qəhrəman, döyüşcü) xalçalarımızda xüsusi yer tutan bu məsləkə ciddi toxunulmamış və zaman-zaman vətən kultunu ifadə edən bu ənənə naxış yaddaşımızın alt qatlarında miras kimi qalmışdır. Və bu miras doğma Azərbaycanın hər bir guşəsində özünəməxsus olaraq sabit şəkildə nəsildən-nəsilə

ötürülmüşdür. Qədimdən bəri həm iç oğuzun, həm də dış oğuzun qız-gəlinləri alp olacaq gənc igidlərə toxuduqları naxışlı alplıq xalçalarının sirləri və bir çox şifrələri vardır ki, indi də xalçalarımızda öz təhlillərini və açımlarını gözləyir. Naxışlı alplıq xalçaları kodludur və Azərbaycan xalçaçılığının alt qatlarına aiddir. Lakin belə xalçaların təyinatı namazlıq, ölümlük və bu kimi xalçalardan fərqli olaraq, araşdırılmamış, təhlil edilməmiş öz sirlərini açmır. Bu baxımdan alplıq xalçalarımızın araşdırılması məqamı çatmışdır. Çatmışdır ki, xalqımız özünü düşməndən qorumaq üçün, ruhuna təsir edəcək qədim nişanlardan, alplıq atributlarından qəhrəmanlıq və təəssübkeşlik ruhunu ala bilsinlər. Bu mənada mənim aradığım alplıq xalçaları çoxdur. Lakin təsadüfi deyildir ki, axtardığım xalça Tovuz bölgəsində düşmənlə üz-üzə dayanmış Öysüzlü kəndinə məxsus "Öysüzlü" adlı alplıq xalçasıdır ki, mahiyyət etibarilə vətən kultunu ifadə edən kodlu naxışlar silsiləsinə malikdir. Və bu silsilələr xalçasının toxunduğu məkanda canını vətən üçün qurban verən alp-generalımız, qan yaddaşında, həm də naxış yaddaşında hər zaman yaşayacaqdır. Torpağımız, Vətənimiz, Dövlətimiz var olsun, Bayrağımız ucalsın!

Hüseynov Məmmədhüseyn Allahqulu oğlu.

Əməkdar rəssam, professor

“Öysüzlü” və ya gizli “Alplıq” xalçası

Xalqımızın tarixi o qədər qədimdir ki, onun qədimliyini ifadə edən bir nəsnə tapa bilmirəm. Hətta bu ulu qədim türk xalqının arxeoloji yaddaşa sığmayan tarixinin olduğuna heç bir şübhəm yoxdur. Mənə bu kəlmələri deməyə əsas verən qədim oğuz əcdadlarımızdan miras qalmış işarə və damğa sistemi, bir də həmin sistemdən törənmiş naxış silsilələridir. Bu silsilələrin qorunduğu xəzinəmiz isə xalçalarımızdır.

Min illərlə əcdadlarımız tərəfindən nəsillərdən-nəsillərə ötürülən işarə və naxışlar, zaman-zaman kodlaşdırılaraq xalqın milli kimliyini və dünyagörüşünü qorumaqla xalçalarımızda əks olunmuşdur. Bu kodların açılması üçün uzun illərdir ki, baş sındırıram. Xalçalarımızdakı bir-birini içinə alan naxışlar və rəng kodları yeganə oxu mənbəyidir ki, yuxarıdan-aşağıya, aşağıdan-yuxarıya, sağdan-sola, soldan-sağa, hətta diaqonallar üzrə oxunmaqla insanı vəcdə gətirir. Belə bir kodlaşma növünü insanlıq aləmində yalnız xalçalarımızda görə bilərik. Bu sənət növü gözəlliklə elm incilərinin iplərlə ilmələrdə qovuşduğu yerdir. O yerdə naxışın tumurcuqları mayalanır. Əsrlərcə əcdadlarımız o yerdə ismarıclarını naxış dilinə yükləməklə xalçanı bilgi sisteminə çevirə bilmişlər. Bu bilgilər neçə-neçə əlçatmaz kəşflərdən sonra xalçalarımızın möcüzəvi və qutsal qoruyucu bir əmanət olduğunu gələcək nəsillərə aşılayacaqdır. Məhz bu baxımdan türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin xalça yaradıcılığı möcüzədir. Və bu möcüzəvi sənətin yaranması dünya alimlərinin gəldiyi qənaətə görə ilkin olaraq, bizim yaşadığımız qədim Azərbaycana aid edilir. Bunu sübut edən faktlar çoxdur. Lakin arxeoloji tapıntıları nəzərə almasaq, ən başlıca fakt odur ki, bu coğrafiyada xalçaçılıq ümumi bir məfhum kimi, dəri, keçə, həsir, xovsuz xalçaçılığın bütün nümunələrinin (palaz, kilim, cecim, zili, vərni, şəddə, ladı, sumax və s.) labüdlüyü ilə bərabər, həm də xovlu xalça növlərinin hər birinin yüksək sənət səviyyəsində inkişaf etdirilməsidir.İllər boyu apardığım araşdırmalarım da göstərir ki, dünyanın heç bir yerində xalçaçılıq bu şəkildə şəbəkəvari bütünləşmə və kompletarlıq prossesi keçirməmişdir. Məhz belə bir proses xalçaçılığımızı zənginləşdirmişdir. Bu zənginliyin içərisində hər şey qəribə görünür. Məsələn, xalçalarımızda təzadlı münasibətlər, çılğınlıq və sakitliyi, gərginlik və təmkinliyi, hücum və müdafiəni, sadəlövlük və qətiyyəti, ağıl və dəliqanlığı, kobudluq və incəliyi, kübarlıq və comərdliyi, nəhayət, iman və vətən eşqini öz içinə alaraq naxış və rənglərin dilində şifrəli qıfılgahlar şəklində özünü ifadə edir.

Bu şifrəli qıfılgahlar isə mərtəbəli, həm də müxtəlif zaman kəsiklərində kodlaşdığından, əcdadlarımızın xalçalarımız vasitəsilə ötürdükləri maddi-mənəvi ismarıcların sirləri, asan olmayan elm qapılarından keçərək açıla bilər. Lakin bu

qapıların ruhsal könül pərdələri ilə örtüldüyünü də unutmaq olmaz. Çünki əcdadlarımız xalçalarımızı həmin könül pərdələrinin sayəsində şifrəli, qəribə, təsiredici, düşündürücü, vəcdverici və nəhayət, eşqverici gücünün sirlərini qoruya bilmişlər. Məhz bu baxımdan Azərbaycan xalçası dünya mədəniyyəti üçün qiymətli elmi-bədii ərmağandır.

Bu gün dünyanın hər guşəsində, hər muzeyində Azərbaycan xalçası var. Xalçalarımız çoxdan bəri alimləri, sənətşünasları, fikir insanlarını özünə cəlb etməkdədir. Lakin onlar naxışlarımızın nəyi ifadə etdiyini susqun baxışları ilə nəzərdən keçirə-keçirə düşünür, cavabsız qaldıqların da isə estetik sözçülüyə üstünlük verirlər. Amma unudurlar ki, Azərbaycan xalçasının naxışları yaddaş, həm də əcdadlarımızın ismarışlarını, məkandan-məkana və zamandan-zamana saxlayan semiotik sistemdir. Bu sistemin mənşəyini klassik Azərbaycan xalçalırının hər birində, o cümlədən bu məqalədə haqqında bəhs açacağımız "Öysüzlü" adlı qədim Oğuz-Alplıq xalçasında da görmək mümkündür.

"Öysüzlü" xalçası Gəncə-Qazax növünün Qazax qrupuna aid olub, Azərbaycanın klassik xalçalarından biridir. Bu xalça kompozisiyası adını Azərbaycanın dilbər guşələrindən olan Tovuz bölgəsindəki Öysüzlü kəndinin adından almışdır. (şəkil 2)

Kiçik Qafqazın Cal dağı ətəyində yerləşən kəndi Qulaqca, Plov və Ağdağ kimi,digər yüksəkliklər əhatə edir.

"Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"nin I cildində Öysüzlünün ayrı-ayrı mənbələrdə Aşağa Oksuzlu variantları da qeydə alınmışdır.Yaşayış məntəqəsini XIX əsrdə Öysuzlu indiki Yuxarı Oysuzlu kəndindən çıxmış ailələr salmışlar.Yenə həmin lüğətdə qeyd olunur ki, Öysüzlü oykonimin birinci komponenti yaşayış məntəqəsinin coğrafi mövqeyini təyin edir, ikinci komponent isə Qazax qəzasında maldarlıqla (qoyunçuluqla) məşğul olmuş Öksüzlü elatının adındandır. (4.səh .92)

"Öysüzlü" oykonimi etimoloji baxımdan tam araşdırılmamışdır. Kənd camaatı Öysüzlünün Öksüzlü kimi olduğuna daha çox inanır. Türkiyənin İç Anadolu ərazisində də, Öksüzlü adlanan yer, yurd adlarının olduğu belə bir qənaətin yaranmasına səbəb olmuşdur.Yerli əhali arasında kəndin Qızılgöz, Öysüzlü, Öksüzlü adlandıranlar da vardır.

Yerli kənd sakinlərinin dediklərinə görə bu kəndi 1970-ci illərə qədər "Öksüzlü" adlandırmışlar.Sonralar isə "Öksüzlü" toponimi "Öysüzlü" toponimi ilə əvəz edilmişdir. Nəticədə məna çalarlarına görə bir neçə anlama gələn kənd adları meydana gəlmişdir. Lakin bu kəndin adı ilə bağlı toponomik mənşənin və məna

yükünün müəyyən olunması araşdıracağımız xalçanın tədqiqində özünəməxsus əhəmiyyət kəsb edir. Vaxtilə L.Kərimovun xalçalarımızı yer-yurd adları ilə adlandırması da, mahiyyət etibarı ilə tarixi-coğrafi, həm də etnik mənsubiyyətlərin unudulmaması üçün seçilmiş üsullardan biri olmuşdur. Ancaq bu üsul xalça çeşnilərinin kompozisiya quruluşuna görə daşıdığı adlarının üzərinə kölgə salmırdı. Bu baxımdan Öysüzlü elatının əsrlərcə toxuduqları xalçaların təyinatına və məna yükünə müvafiq olaraq, həyat hekayələrinə işıq salacaq "Okuzlu", "Oksuzlu", "Qızılgöz", "Öksüzlü" , və "Öysüzlü" kimi oykonimlərin araşdırılmasında bir məntiq vardır. Çünki ənənəvi xalça kompozisiyalarımızın yaranması prosesi mütləq mənada hər hansı bir mühitin ruhunu və ya tayfa, elat xüsusiyyətlərini əks etdirdikdə xalq tərəfindən təqdir olunurdu. Yalnız belə halda xalçalarımızın semiotik yaddaş sistemində coğrafi mühit, tayfa örnəkləri və tarixin keçmiş izləri yaşaya bilərdi.

Xalça sənətinə bəslənən bu cür munasibət əsasən qədim Oğuz boylarına mənsub olan tayfalar arasında geniş şəkildə sistemləşmişdir. Məhz bu baxımdan keçmiş dövrlərdə ismarış daşıyan xalçalarımız müxtəlif məkanlara uyğun olaraq, növləşdirilirdi. Təyinatına görə doğuluş-beşik xalçaları, cehiz-büsat xalçaları, toy-şölən xalçaları, yol xalçaları, ara xalçaları, döşəməlik xalçalar, divar xalçaları, sədir xalçaları, cahannüma xalçaları, ibadət-dua xalçaları, gömü və ya ölümlük cənazə xalçaları və bu kimi adları həm də təyinatları unudulmuş xalçalarımızın arasında "Alplıq" xalçaları da xüsusi yer tutmuşdur.

Alplıq (qəhrəman ordu başçısı, yurd-yuvasını qoruyan igid, başçı, paşa, general) xalçaları xüsusi ismarışlar daşıyan döyüş atributlarını, ayinlərini, həmçinin alplıq barəsində Oğuz qız-gəlinlərinin dünya baxışlarında yer alan mistik ornamental naxış silsilələrini və sujetləri əks etdirən xalça növüdür. Hələ ta qədimdən, çadırdan çıxıb at belinə qalxan gənc oğuzların xəyalında "dünya fatehi olmaq" fikrinin toxumlarının atılmasında həmin xalçalardakı motivlərin təsiri böyük olmuşdur. (3.səh.223)

XVI əsrə qədər əsasən damğalı-naxış elementləri ilə toxunan alplıq xalçaları sonralar sujetli səhnələrin təsvirlənməsi ilə daha da inkişaf etdi. Lakin qeyd etmək lazımdır ki, alplıq xalçalarının "Pazırık" xalısı kimi, ən qədim nümunələri hələ bizim eradan daha əvvəllər də toxunmuşdur.

Təyinatına görə alplıq xalçalarının sujetli nümunələrindən fərqli olaraq, onun ornamental nümunələrinin semiotik şəkildə araşdırılması çətin və mürəkkəbdir. Çünki alplıq simvolizminin xalçalarda tanınması əsrlər ötdükçə unudulmuşdur. Lakin alplıq xalçalarının nişanları araşdırıcı xalçasevərlərin könlünə xüsusi təsir göstərməklə keçmişin rəmzi sirlərinin açılmasına yol açır. Hansı ki, öz sirlərilə

könül işığına yol açan “Öysüzlü” xalçası da, alplıq xalçalarımızdan bir nümunədir.Onun toxunduğu yurd yeri Öysüzlü, bu gün düşmən ermənilərlə sərhəddə yerləşən qədim vətən torpağının bir parçasıdır. Bu kənd, bu el keşmə-keşli yollar aşmış, mübariz, qəhrəman, zəhmətsevər və sənətsevər insanları ilə əsrlərə sinə gərmişdir.

Xalçaçılıq sənəti Öysüzlü elatının keçmiş və ənənəvi məşğuliyyəti olmuşdur. Mərhum ustadım Lətif Kərimov “Öysüzlü” xalçalarının naxış sisteminin qədim ənənələr üzərində qurulduğunu qeyd etmişdir. Hətta “Öysüzlü” çeşniləri el-oba arasında geniş yayıldığı kimi, ətrafdakı Aşağı Quşçu, Xatınlı, Bozalqanlı və digər kəndlərdə də toxunmuşdur. Bu da keçən əsrlərdə Tovuz bölgəsinin müstəqil xalçaçılıq ocağı, məntəqəsi kimi tanınmasına səbəb olmuşdur.

Qədimdən bəri “Öysüzlü” xalçasının zəngin orjinal nümunələri var idi. Lakin müəyyən zaman kəsiklərində həmin nümunələrin bəzisinin naxış quruluşunda fərqli cəhətlər üzə çıxmışdır. Hazırda “Öysüzlü” xalçasının II varinatı mövcuddur ki, məqalədə həmin xalçaların naxışlarına görə ornamental alplıq xalça anlayışına işıq salacaq.

“Alplıq xalça”lar qədimdə Oğuz igidlərinin, ordu başçılarının,el-obanı müdafiə edən qəhrəmanların, güc birliklərinin şərəfinə qoruyucu mahiyyətinə görə toxunurdu. Yaşlı xalçaçıların əfsanəvi Oğuz qəhrəmanları barəsində deyimlərini mistik naxış formalarına çevirən çılqın sənətkarlar bu ənənəni nəsillərdən-nəsillərə ötürməklə, yurd-yuvalarının, çadır və alaçıqlarının müqəddəs hesab edilən baş guşəsində fövqəladə toxunmuş əmanət kimi, asıb qoruyurdular. Oğuzların müqəddəs hesab etdikləri qopuz və ya saz (mərkəzdə), ox-yay (solda), qılınc və qalxan (sağda) yalnız alplıq xalçalarının üzərindən asılırdı. Lakin sonrakı əsrlərdə alplıq xalçalarını təyinatı başqa olan, müxtəlif quruluşlu naxışlarla tərtib olunmuş xalçalar əvəz etməyə başladı. İndi də Azərbaycanın müxtəlif yerlərində təyinatından asılı olmayaraq divardan asılmış bəzi xalçaların üzərində ov silahları, simli musiqi alətləri, rəhmətə getmiş əziz insanlar, ən başlıcası isə mənfur ermənilərlə torpaq uğrunda müqəddəs savaşda vuruşub şəhid olan qəhrəmanlarımızın şəkilləri və ya portretləri asılır. Orta əsr çağlarında isə Oğuz türkləri təyinatına görə yalnız alplıq xalçalarını qutsal əmanət kimi qəbul edirdilər. Onlar müqəddəs bildikləri hər nə varsa (damğa, nişan, işarə və s.) stilizə edərək naxış dilində xalçalara toxuyurdular. Biz bu xüsusiyyətləri əks etdirən “Öysüzlü” alplıq xalça nümunələrini müqayisəli təhlillər vasitəsilə araşdırdıqda, unudulmuş bir çox naxışlarımızın sirli şifrələrinə işıq salmış olacağıq. Lakin bu xalçanın bədii, texniki cəhətləri ilə yanaşı, həm də yaranmasında etnik xüsusiyyətləri təhlil etdiyimiz zaman “Öysüzlü” oykonimindən geniş istifadə edəcəyik. Çünki xalçanın

bu adı alması da təsadüfi deyil. İnsanların canlı və cansız təbiət varlıqlarının ad alması ilahi bir hökmdür. Əcdadlarımızın mədəniyyətində bu hökmləri peyğəmbərlər,övlüyalar, müdriklər və ya ağsaçlılar həyata keçirirdilər.

Türk-Oğuz mədəniyyətində ad qoymağın, ad almağın, ad verilməsinin əski qaynağı Dədəm Qorquddur. Oğuz türkləri üçün bu əski qaynaq Dədə Qorquddan sonra sistemləşərək hər elatın ağsaqqaları və ağbirçəkləri tərəfindən həyata keçirilirdi. Zaman-zaman bu ənənə unudulsa da, sonrakı nəsillər doğulan uşaqların adlarının, hətta yer-yurd adlarının da qoyulmasında müqəddəs Qurani-Kərimə üz tutmalı oldular.

Xalqımızın həyat səhifələrində mühüm yer tutan xalçalarımızın etnik adları,çeşnilərinin, kompozisiya quruluşlarının adları, naxış və damğalara aid hər bir adın öz mənaları, öz çalarları var. Məhz bu səbəbdən "Öysüzlü" adlı alplıq xalçası həm də etimoloji baxımdan da maraq doğurur. Tarixən "Öysüzlü" elatına mənsub "Oksuzlu", "Öksüzlü", "Okuzlu", "Qızılgöz" kimi oykonimlərin araşdırılması təhlil edilən alplıq xalçasına səciyyəvi olan rəmzi xüsusiyyətlərə də işıq sala bilər.

Tarixi istinadlarda qeyd olunur ki, 1747-ci ildə Nadir şahın ölümündən sonra Qafqazda yaranmış xanlıq və eyni zamanda bir sıra sultanlıqlar özlərinin mərkəzləri ilə də fərqlənirdilər. Belə sultanlıqlardan biri Şəmsəddin idi (bəzi tarixi qaynaqlarda Şəmsəddil adı ilə qeyd olunur). XVIII əsrin ortalarında yaranmış bu sultanlıqların mərkəzi Tovuz deyil, mərkəzdən 8 km cənub-qərbdə yerləşən məhz indiki Yuxarı Öysüzlü kəndi olmuşdur. (11.)

"Öysüzlü" oykonimi öy+süz+lü komponentlərindən ibarətdir. Burada Öy təriflə, bəyan deməkdir və evin ilk variantıdır. (5.səh .213.) Öksüzlü toponomində isə sözün əvvəlindəki Ök əski türk dillərində ana (6.səh .113.) həm də ön, qabaq, tərəf deməkdir. Öksüz sözünün də yetim, anasız mənasına gəlməsinin əsas səbəbi budur.(7.səh. 226.) Bu elatın ağsaqqallarının İç Anadoluda öksüz adlı kəndlərin olduğu qənaəti bundan qaynaqlanır. Lü- şəkilçisinin hər iki (öysüz, öksüz) toponimə birləşməsi isə mənsubiyyəti (4.səh.92) bildirir. Lakin subyektiv olaraq bu qənaətə gəlmək olar ki, "Öysüzlü" nün daha qədim arxaik toponimlərin birinin törəməsi olduğu şübhəsidir. Çünki bəzi mənbələrdə bu kəndin "Qızılgöz", "Okuzlu", "Oksuzlu" olduğu da qeyd olunur. (12) . Hansı ki, tərkibinə görə bu oykonimlərin ok-ox, söz-saz, oğuz-ağüz kimi kultlarla sıx şəkildə bağlıdır. Ən başlıcası isə "Öysüzlü" adlı alplıq xalçasının naxış sisteminə məxsus rəmzlərdə də bu kultlar xüsusi olaraq yer alırlar.

Digər tərəfdən müəyyən zaman kəsiklərində kəndin “Qızılgöz” adlanması da təsadüf deyil. Burada da ok-ox, söz-saz kultuna bağlı olan əlamətlər var. Hətta indi də el içində hədəfi, nişangahı, sərrast görən döyüşçülərə, “gözün qızıldır”, “gözləri qızıldır”, “qızılgözdür”, yaxud da söz-söyləyib, hünər göstərənə “sözləri qızıldır”, “qızılı kimi söz söyləyir” və başqa deyimlərə də rast gəlinməkdədir. Göründüyü kimi, “Öysüzlü” elatına məxsus, lakin tarixin keçmiş səhifələrində qalmış əski “Oksuzlu”, “Okuzlu” və “Qızılgöz” oykonimlərinin daşıdığı məna çalarları eyni adlı “Öysüzlü” alplıq xalçasının naxış sisteminin rəmzləri ilə assosiativ şəkildə bağlı olan xüsusiyyətlərə malikdir. Lakin bu xüsusiyyətlər hövzəsinə görə iri bir çayın dənizə və ya okeana doğru dəfələrlə birləşib-ayrılan qollar şəbəkəsinə bənzəyir ki, bu da alplıq xalçasının araşdırılmasına xüsusi maraq yaradır. Məhz bu baxımdan stilizəsi mürəkkəb təkamül yolu keçmiş “Öysüzlü” alplıq xalçasının naxışları sadə və həndəsi formalardan ibarət olub, rəmzi tutumu ilə diqqəti cəlb edir.

Mərhum ustadım L.Kərimov “Öysüzlü” xalçasının alplıq xalçası olduğunu qeyd etməmişdir, amma bu kompozisiyanın Qazax xalçaçılığına xarakterik bəzi xüsusiyyətlərindən bəhs açmışdır. O, xalçanın kompozisiya quruluşunda əksini tapan bir neçə rəmzi naxışların adlarını kəşf etmişdir. Bunlar əsasən, xalçanın ara sahəsində toxunmuş orta əsrlərin “kətəbə”lərinə bənzəyən “torba” və ya “çuval” adlı göl, yerli toxucuların “quyrumlu naxış” dedikləri “Qarmaqlı haşiyə” naxışlarından ibarət idi. Lətif müəllim “torba” ,yaxud “çuval” adlı bu göl naxışının arpa, buğda yığmaq üçün stilizə olunmuş element kimi dəyərləndirilmiş və onun varlılıq, bolluq, firavanlıq rəmzlərini ifadə etdiyini qeyd etmişdir. (10.səh .143). Maraqlı faktlardan biri də budur ki, “qarmaqlı” naxışına Öysüzlünün, Tovuzun başqa yerlərinin, o cümlədən Qazax və Borçalı mahalının keçmiş ustaları, ənənəvi olaraq “quyrumlu naxış” demişlər. Onlar bu naxışın xovlu xalçalardakı təsvirlərinin əsas qaynağını xovsuz xalçalardan olan məfrəş,çuval və heybə naxışlarında görürdülər.

“Öysüzlü” xalçaları, əsasən orta ölçülü,bəzən 8-10 kvadratmetrə qədər toxunur. İlmə hündürlüyü 8-10 mm civarından çox olmur. Sıxlıq göstəriciləri təqribən 1kv metrdə 100000 ilmə sayında dəyişir. Rəng baxımından isə ifadəli boşluqda rəmzi-qarşılıqlı formalar yaratmaq prinsipinə uyğun olaraq, fon-naxış,naxış-fon sistemində tərtib olunmaqla mürəkkəb quruluşlu xalçalarımızdan hesab olunur.

Bu vaxta qədər “Öysüzlü” xalçası barəsində bildiklərimiz çox məhduddur. Hətta xalçanın alplıq xüsusiyyətli olduğu da, heç bir yerdə qeydə alınmayıb, bəlkə də tamamilə unudulmuşdur. Əksinə xalçanın təsərüffat və ya məişət xarakterli rəmzlərdən tərtib olunması, birmənalı şəkildə səciyyələndirilir. Lakin xalçanın I

və II variantlarında təsvir edilmiş naxışları müəyyən qədər araşdırdıqda tamamilə fərqli simvolizmlə qarşı-qarşıya çıxırıq.(şəkil 3,4)

Məsələn, I variantda “torba”, “kisə” və ya”çuval” adlandırılan element içinə “xeyi-bərəkət”,”həyat” rəmzi olan dənli bitkinin yığılması mənasını ifadə etməsi, uyğun təsəvvür deyil. Amma Öysüzlü elatının dəyirmançılıq və çörəkçiliyə xüsusi rəğbət bəslədikləri də məlumdur. İndi də bu kənd camaatı 25-növ çörək bişirmək ənənəsini qorumaqdadır. Hətta bu barədə öysüzlülərin dilində əzbər olan “Xamralı xas əppəyi, bağrına bas əppəyi” deyimi də yaşamaqdadır. Buradan bu elatın çörəyə, ruzi-bərəkətə verdiyi mənəvi dəyəri aydın şəkildə görmək mümkündür.Məhz bu baxımdan xalçanın I variantına məxsus göl təsvirlərinin mərkəzində künclərdən diaqonal istiqamətli çıxıntıları olan düzbucaqlı elementi “torba”,”kisə” və ya “çuval” adlandırmışlar. Lakin bu elementin içərisindəki damğayabənzər naxışın isə alplıq işarəsi olduğu unudulmuşdur. Bundan başqa “torba” və ya “çuval” adlı naxışın yuxarı və aşağı tərəflərdəki üçşaxəli “baltavar” alplıq elementinin təsvirləri də məna etibarı ilə fərqli xüsusiyyətləri ifadə edir.

“Öysüzlü” xalçasının II variantında isə I variantdan fərqli olaraq, ara sahənin mərkəzi göllərin içərisində Azərbaycan xalçaçılığında geniş yayılmış, eyni zamanda vətən kultunu ifadə edən düzbucaqlı təsvirləri verilmilşdir. Bu düzbucaqlı (mədfən, qəbr, ocaq, ev, yurd və s.) elementlərin buynuzşəkilli “Tenqrixan” və ya “Oğuz damğası” adlı işarənin üzərində təsvir olunması isə vətən kultuna aid olub, həm də yurd qoruyuculuğunu ifadə edən alplıq xalça elementi kimi ortaya çıxır.

Digər variantda “torba” və ya “çuval” deyilən elementin diaqonal qollara ayrılması, onun dəri (post) olduğunu göstərir. Hələ qədim dövrlərdə belə dəri (post) üzərində hökmranlar, alplar, sonralar isə dərvişlər, təriqət şeyxləri otururdular. Azərbaycan türklərinin mədəniyyətində qoyun-qoç dərisi müqəddəs sayılırdı. Onlar xalçalarımızdakı təsvirlərinə görə üç qrupa ayrılırlar. Gücü, qüdrəti ifadə edən qoç dəriləri dörd buynuzlu çıxıntısı ilə alplığı, üç buynuzlu çıxıntılı olduqda şamanlığı (8.səh .255), beş çıxıntılı olduqda isə ruhaniyyəti, dərvişliyi ifadə edirlər. “Öysüzlü” xalçasının hər iki nümunəsində bu təsvirlər alplığın tərənnümü kimi çıxış edir.

Başqa tərəfdən mərkəzi ox boyunca tərtib olunmuş kətəbəyəbənzər üç göl formasının da, bu şəkildə naxışları içinə almaqla alplığın simvolunu daşımış olur. Bu cür göllərin təsvirləri “Öysüzlü” xalçalarına xarakterik olub 10, yaxud da 12 tərəfdən ibarət olub, alplıq mərhələlərinin pillələrini ifadə edirlər. Onların təsvirləri isə bəzən iç-içə, rəngləri fərqli, həm də “su” zolaqçıqları ilə bir-birilərindən ayrılırlar. Bundan başqa bu göllərin cəlbediciliyi onun sonluqlarında təsvir edilən qarmaqlarla bağlıdır. Bu qarmaqlar hər hansı bir fon üzərində təsvir olunduqda

həmin fonun sərhədlərində qarşılıqlı qarmaq formaları yaradır ki , bu da ayrıca başqa elementə çevrilə bilir. Belə naxışlar kodlu, şifrəli və gizli mənalar daşımaq xüsusiyyətinə malik olurlar. Təhlil etdiyimiz "Öysüzlü" xalça nümunələrində qarmaqlar vasitəsilə rənglərin üst-üstə və lakonik verilməsi həm zəngin baxımlılıq, həm də tutumlu rəmzi mahiyyət yaradır. Burada ayrıca olaraq, stilizə olunmuş dalğayabənzər "quyrumlu" ,yaxud "qarmaqlı" formalarının təsviri, mənaca alplığın və müharibə mələyinin simvolu olan "yeriyən əjdaha" obrazı ilə assosiasiya olunur. Ancaq qeyd etmək lazımdır ki, Azərbaycan xalçaçılığında bu naxışlar ilkin mənasını itirməklə "puşqu" və ya "əl mişarı" adlandırılır. Lakin mişarın xassəsində kəsmək, doğramaq, bölmək mənalarının ifadə olunması, bu naxışın müharibə mələyini xarakterizə edən "əjdaha" simvolundan yan keçmir. Biz bu cür şəkildə stilizə olunmuş əjdaha təsvirlərini "Öysüzlü" xalçasının II variantına məxsus olan ana haşiyə zolağının yerliyində əmələ gələn fiqurda müşahidə edirik. Burada "əjdaha" elementini əmələ gətirən təsvir isə "qarmaqlı-gərdəkbaşı" adlandırılan naxışdır. Bu naxışın şahmat şəkildə, qarşı-qarşıya və bir-birinə toxunmayan təsvirləri sayəsində ana haşiyə yerliyinin ifadəli boşluğa çevrilməsi ilə qarmaqlı şəkildə əjdaha fiqurları yaranır ki, bu da alplığın qoruyucu xüsusiyyət daşıyan rəmzlərini ifadə edir. Xalçanın bədii tərtibatında əjdaha fiqurlarının ara sahədə, həmçinin ara haşiyə zolağında bir-birinə bağlı və lentvari şəkildə verilməsi isə ümumilikdə kompozisiyaya müəyyən dinamiklik və hərəkətlilik bəxş edir. Burada sabit qalan törədici naxış kimi "gərdəkbaşı" naxışıdır ki, onun da müstəqil şəkildə təsvirlərində alplıq rəmzləri əks olunur. Bu naxışın nə vaxt yaranması dəqiq məlum deyil. Amma qonaq-köçər türk tayfalarının ev əşyalarında, o cümlədən xovsuz və xovlu xalçalarında həkk olunması elementin daha qədim rəmzlər daşıdığından xəbər verir. Naxışın "gərdəkbaşı" adlandırılması da təsadüfi deyil. Çünki bu naxış gərdəyə girəcək bəy-gəlin çadırının qapısı və taxtının üstünə asılan tikmələrə, ağac oymalara, həmçinin doğulacaq uşaq beşiklərinin baş hissəsinə həkk olunurdu. Azərbaycan xalçaçılığında "gərdəkbaşı" naxışının simmetriya qanunları əsasında bütövləşmiş təsviri isə onun "qarmaqlı", "qıvrım","quyrumlu", "pitraq", "Muğan gölü", "əqrəb", "əjdaha" və sair adlanmasına səbəb olmuşdur. Amma "Öysüzlü" xalçasının ana haşiyəsi bu naxışa görə yerli xalq tərəfindən "qarmaqlı-naxış" və yaxud "quyrumlu-naxış" haşiyəsi adlandırılmaqdadır.

Əcnəbi araşdırıcılar yanlış olaraq bu elementin bitki mənşəli olduğunu qeyd edir və "qanqal" kimi dəyərləndirirlər. Lakin naxışın quruluşuna diqqət etdikdə, onun əsasını təşkil edən üçbucaq və həmin üçbucağın oturacaq tərəfi istisna olmaqla yan tərəflərindən şaxələnən quş başlarının stilizə olunmuş təsvirlərini görəcəyik. Burada yerə baxan quş başının təsvirləri sayından asılı olmayaraq, aşağıdan yuxarıya doğru üçbucağın təpə nöqtəsində qoşalaşaraq, əks tərəflərə

istiqamətlənmiş “İkibaşlı qartal” simgəsini əmələ gətirir və bu da, qədim Oğuz türklərinin onqonlarının əsasını təşkil edir. Çünki Oğuz boylarının hər birinin onqonu ayrı-ayrı yırtıcı quşlar olub, mənşəyi qartala bağlıdır ki, bu da alplığın, cəngavərliyin, ucalığın, qoruyuculuğun və himayənin simgəsi ilə üst-üstə düşür. Və bu simgənin himayə və qoruyuculuğu üçbucağın içərisində mərtəbəli, zikkurata bənzər təsvirlərin rəmzləri ilə əlaqəlidir.

“Tikili”, “məbəd”, “pitik”, “ehram” və bu kimi başqa-başqa adlarla adlandırılan bu təsvir isə qorunan yurd-yuva timsalında vətən kultuna aiddir. Çünki simmetriya əsasında birləşmə baş verdikdə də bu damalı naxışlar bütövləşib, əkin yeri, torpaq, ev, buğda tarlası mənasında rəmzi xüsusiyyət daşıyır.

Eyni zamanda xalçanın kompozisiyasındakı, bu elementlərin mərkəzi göllərinin ortasında təsvir olunmuş, “mədfən”, “məkan”, ən başlıcası isə “yer”, “torpaq” mənasında vətən kultunu ifadə edən naxışlarla assosiativ olaraq bağlılıq təşkil edir. Burada vətən kultunun vurğulanması da səbəbsiz deyil, çünki vətən kultunun ifadə edən naxışların xalçalarımızda yer tutması təbiidir. Bu Oğuz türklərinin yaradılışında, genetik yaddaşında xüsusi bir məfhumdur.

Türklərin vətən sevgisinə ən çox sahib olan millət olduğunu anlamaq üçün xalçalarımızın naxışlarına, onların şifrələnmiş kodlarına diqqət etmək kifayətdir. Biz bu kodları qədim oğuznamələrimizdə də görə bilərik. Əcdadlarımızın torpaq , yurd, seçərkən mərkəzində dağ olan bozqır əraziləri müqəddəs bilib onu göz bəbəkləri kimi qoruduqları tarixdən bəllidir. Hələ orta əsr türk dastanlarında və atalar sözlərində torpaq, namus qəbul edilirdi. Çünki türk inanc sisteminə görə, insan yerdən, torpaqdan qüdrət alır. Türklər üçün torpaq itkisinin dözülməz olduğunu Mete xaqanının timsalında görə bilərik. O, Tunquz hökmdarının türkləri alçaldan bütün tələblərini qəbul etmiş, amma türklərlə tunquzların ölkəsi arasında yerləşən ərazinin tunquzlara verilməsi tələbini qəbul etməmişdir. Əksinə, tunquzlara hücum edib, onların dövlətinə son qoymuşdur. (2.səh.151)

Tariximizin vətəni qorumaqla bağlı bu cür salnamələrlə, haqqında bəhs etdiyimiz “Öysüzlü” kimi, Alplıq xalçalarımızla sabit qalxması, varislik ənənələrindən irəli gəlir. Məhz bu baxımdan mənfur düşmənlərimiz işarə sistemlərimizi özündə əks etdirən xalçalarımıza da göz dikmişlər. Amma onların gözlərinə ox kimi batan naxışlarımız da az deyil. Hansı ki, o naxışların sirlərindən bəzisi “Öysüzlü” xalçasının mədaxilində (haşiyə zolağının adıdır) təsvir olunmuş “ox-başı”, “tuğbaşı”, “nizəbaşı”, “qalabaşı” və bu kimi adları unudulmuş nümunələrdə də görə bilirik. Bu naxışın xalq arasında müxtəlif adları var. Məsələn: Quba və Şirvanda “mollabaşı”, Qarabağda “pitik” və ya “açma-yumma”, Qazax və Tovuzda “çömçə” (qaşıq) adlandırılır. (9.səh .170)

Lakin ayrıca olaraq bu naxışın quruluşu atalar kultunu ifadə edən, bal-bal və ya "daş baba"dır. Bu naxışın əcdadlar kultu ilə bağlı dərin simvolları var. Naxış Oğuz türklərinin ata-babalarına aid məzar daşlarına bənzədiyindən , həm də mədfən yeri olaraq, vətən kultuna işarədir.

"Öysüzlü" xalçasında bu naxış, ana haşiyəni hər iki tərəfdən əhatələyən haşiyə zolağının içərisində xalq arasında "qab-qabı" (naxışınhər hansı bir zolağın içərisində həm aşağı, həm də yuxarı tərəfdən eyni quruluşunu əks etdirən təsvir üsulu) adlandırılan üsulla təsvir olunub. Bu üsula görə yaranan naxış düzümü xalçanın kompozisiyasına müvafiq olaraq bir neçə simvolu ifadə etmək xüsusiyyətinə malik olur. Bunlardan ən başlıcası "oxbaşı" və "bal-bal daşı" simvoludur ki, bu da, xalçanın təyinatına səciyyəvidir. Burada alp babalarımızın dünyagörüşü, eyni zamanda sadə təsvir üsulu ilə gələcək nəsillərə ötürülən ismarışları da sezmək olur.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın bir çox xalçaçılıq ocaqlarında, o cümlədən Quba-Şirvan xalçaçılığında bu naxış zolağını "mollabaşı" adlandırırlar. Mənası isə başı çalmalı kişilərin sıra ilə oturub məşvərət keçirməsinə işarədir. Əsrlər ötdükcə atalar kultunu ifadə edən bu naxış düzümünü sonradan baş bilən, oxumuş, təhsilli mollaların əvəz etməsi dini zərurətdən qaynaqlansa da, simvolizm baxımından əsas mahiyyəti dəyişməmişdir. Hər iki halda vətənin qorunması baş bilən, comərd alplara, qəhrəmanlara söykənir.

"Öysüzlü" xalçasında bu naxışın bir neçə rəmzi var. Lakin bu rəmzlər prinsip etibarilə alplıq rəmzləri kimi, öz xüsusiyyətlərini itirmir. Məsələn: "ox-başı" və ya "tuğbaşı" timsalında bu simvol bütün türk boylarının qədim tarixə bağlı olaraq , həm də Öysüzlü elatının mənşəyinə də işıq salır. Hətta bu tayfanın keçmişini xunanlarla (hunlarla), Alban oğuzları ilə bağlayan digər alplıq simvollarını da oxsuz, yaysız, həm də tuğsuz təsəvvür etmək mümkün deyil. Məhz bu baxımdan bu torpaqların varisləri olan bütün Oğuz türk tayfalarının təfəkküründə dəmirçilik məfhumu qalmaqdadır. Oxu, tuğu inanc mərhələsinə qədər yüksəldən oğuzların sənət nümunələrini də, oxsuz-yaysız, həm də tuğsuz təsəvvür etmək olmur. Bu döyüş atributları Oğuz türkləri üçün müqəddəs alplıq əmanətləri içərisində xüsusi yer tutur. Çünki əcdadlarımız tarixə inancları və atributları ilə düzən gətirmiş, həm də möhtəşəm dövlətlər yaratmışlar. Salnamələrimizdə də bu barədə yazılır ki, yer üzündə artıb çoxalmış Oğuz gövmunu üç qızıl oxla – Uçoklara və üç qızıl hissədən ibarət olan yayla- Bozoklara ayıran Oğuz xaqan bütün türklərə alp olaraq dəyər vermişdir.

Məhz bu baxımdan "Öysüzlü" xalçasında ox uclarından tərtib olunmuş haşiyə zolağı bu elatın keçmiş adlarından biri olmuş "Okuzlu", yəni "Oxuclu" adlanması

ilə səslənməkdədir. Digər tərəfdən “Okuzlu”nun “Oğuzlu” kimi səslənməsi də mövcuddur ki, bu da, bu elatın Oğuz boylarından birinə mənsub olduğuna işarədir. Burada “ok” , “ox” un variantı kimi çıxış edir.

Lakin “ox” və ya “ok”un məna tutumları çox genişdir. “Ox” günəşdən yerə gələn şüadır və əks edib günəşə qayıdır. Bu da ox işarəsinin əmələ gəlməsinə, həm də qədim müqəddəsliyinə işarədir.

Oğuz türkləri bir-birini dəvət edərkən ox göndərirlərmiş. Onların qədim inanclarında göydən gələn və əks olunub, oraya qayıdan şüa-ox, qut-can gətirir və xaqanlıq verir. Qam-şaman ayinlərinin də oxla keçirilməsində bu hikmətlər yer alırdı.

“Öysüzlü” alplıq xalçasının rəmzi mənaları çox genişdir. Hətta bu mənalar bir məqaləyə sığmadığı üçün, bir kitaba da sığmaz. Çünki bu xalçanın üzərində min illərin şifrələnmiş məlumatları var və onlar üst-üstə toplanıb dağ kimi zirvələnibdir. Burada insanın ağlına, idrakına təsir edəcək çox məzmunlar var. Məhz bu baxımdan bu xalçanın təyinatlı olduğunu məqalənin ilk sətirlərində qeyd etmişdim. Bu cür quruluşa malik olan və üzərində stilizə olunmuş “gərdəkbaşı”, “mədfən-qəbir”, “yer-su”, “torpaq”, “əkin-yeri”, “bolluq torbası”, “daş baba” ən başlıcası ara sahənin mərkəzi nöqtəsindəki “ləçək-ana” işarəsi kimi,vətən kultunu ifadə edən rəmzlərin təsvir olunması həm də bu rəmzlərin toxunulmazlığını himayə edən “buynuz”, “qoşa”, “baltavar”, “qıvrım-quyrum”, “yer-əjdaha”, “ikibaşlı qartal”, “üç-qalxan”, “alp-yeri”, (dəri post), “oxbaşı”, “qala başı” və başqa-başqa alplıq rəmzli xalçalarımız müqəddəsdir, təyinatlıdır...

Qədim, sirli Azərbaycanın müdrik ağsaqqalları alplıq xalçalarını törə əmanəti kimi qoruyub nəsillərdən-nəsillərə ötürülməsində də, ariflik nümayiş etdirmişlər. Onlar bu qəbildən olan “üçgöllü” xalçaları alaçıqların və evlərin divarlarına bərkidərək, göllərinin üzərinə ox-yay, qopuz-saz, bir də hər dövrə uyğun olaraq, silah növləri asmışlar. Bu əmələin, xalçalarımızın qədim adlarının istər təyinatına, istərsə yer-yurd adlarına görə qorunmasında da, böyük əhəmiyyəti olmuşdur.

Məhz bu baxımdan “Öysüzlü” kimi, alplıq xalçalarının naxış sistemi ilə onun üzərində asılan atributların üzvü şəkildə uzlaşmasının sayəsində, mənşə etibarilə xalçanı ərsəyə gətirən elatın dünyagörüşünə, həm də tarixi yaddaşının sirli tərəflərinə işıq salmaq mümkünləşir. Bu nöqteyi-nəzərdən, mənasına görə “Öysüzlü” xalçasındakı uzlaşmaların yaratdığı gizli məqamlardan baxsaq, “Öysüzlü” elatını “Oksazlı”, yəni Ox+Saz+lı kimi görəcəyik ki, bu da, öysüzlərə məxsus alplıq xalçasının kodlaşmasında əsas meyar rolunu oynamışdır.

Lakin xalçaçılığa məxsus bu cür meyyarlar son yüz ildə tədricən unudulsa da, xalq arasında min illərlə yaşadılan anlaşıqlı, həm də mədəniyyətimizin əxlaqi ənənələrini hələ də müşahidə etmək mümkündür. Və bu ənənələrin sayəsində yaddaşımızı, alt düşüncələrimizi oyatmaqla tariximizi, milli xarakterimizi, ən başlıcası alplıq-qəhrəmanlıq qururumuzu diri və dik tutub doğma vətənimizi mənfur yağıların pis niyyətlərindən qoruya bilərik.

Ədəbiyyat siyahısı

1. “Azərbaycan toponimlərinin ensiklopedik lüğəti” I cild. Bakı. “Şərq-Qərb” 2007
2. Əkbər Nəcəf “İnanc yaddaşı”, İzmdeia. Baky-2014
3. Əkbər Nəcəf “Miflərin köçü” “Başla kitab” , Bakı. 2017
4. Əliyeva Rübabə. XVIII-XIX əsrlər rus və Avropa səyyahlarının əsərlərində qeydə alınmış Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili. Bakı-“Qanun”-2002
5. İsa Musayev, Dil, yaddaş, vətən, vətəndaş, “Günəş”. Bakı-1995
6. Mirəli Seyidov “Azərbaycan Xalqının soy kökünü düşünərkən”.Bakı 1989
7. Oğuznamə.”Yazıçı” Bakı.1987
8. Uraz M.Türk Mifolojisi, Ankara . 1993
9. Лятиф Керимов “Азербайджский ковер” I tom
10. “Азербайджский ковер” Гянджлик II tom Baку- 1983
11. https://az.m.wikipedia.org/wiki\yuxar%c4%B1_%C3%96ys%C3%zi %C3%BC)
12. https://az.m.wikipedia.org>wiki

Məhəmmədhüseyn Hüseynov
Azərbaycan Milli Xalça Muzeyinin "Elmi-tədqiqat və milli irsin qorunub saxlanılması" şöbəsinin aparıcı elmi işçisi, Əməkdar rəssam, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru

Şəkil 1. **Şəhid General Polad Həşimov**
1975-2020

Şəkil 2 . **Yuxarı öysüzlü kəndi**

Şəkil 3 . **"Öysüzlü"** I variant. Qazax qrupu. Azərbaycan. XIX əsrin ortaları.
Balakən Cümə məscidinə aiddir.



Şəkil 4 . **"Öysüzlü"** II variant. Qazax qrupu. Azərbaycan. XX əsrin əvvəli.
Ölçü: 117×204. Azərbaycan Milli Xalça Muzeyi. DDK 4466